**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**ARXEOLOGİYA VƏ ETNOQRAFİYA İNSTİTUTU**

*Əlyazması hüququnda*

**GÜNEL ŞAHİN qızı ƏLİBƏYOVA**

# NAXÇIVANIN TUNC DÖVRÜ KURQANLARI

**5505.02 – Arxeologiya**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün tədqim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI - 2018**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun “Eneolit və Tunc dövrü arxeologiyası” şöbəsində yerinə yetirilmişdir

**Elmi rəhbər:** **Abbas Qadir oğlu Seyidov**
Tarix üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **Nəcəf Ələsgər oğlu Müseyibli**
Tarix üzrə elmlər doktoru

**Toğrul Fərman oğlu Xəlilov**
Tarix üzrə fəlsəfə doktoru, dosent

**Aparıcı təşkilat:** **AMEA Milli Azərbaycan Tarixi Muzeyi**
“Arxeologiya elmi fond” şöbəsi

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutu nəzdində 5505.02 – Arxeologiya ixtisası üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiyaların müdafiəsini keçirən F/D 01.171 Dissertasiya Şurasının “_____”___________ 2018-ci il tarixli iclasında saat ______ -da keçiriləcəkdir.

**Ünvan: Az 1143,** Bakı şəhəri, H.Cavid prospekti, 115

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat “______” _____________ 2018-ci ildə göndərilmişdir.

**F/D 01.171**
**Dissertasiya Şurasının**
**Elmi katibi:** **Səfər Hüseyn oğlu Aşurov**
Tarix üzrə fəlsəfə doktoru

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Dissertasiya işində Azərbaycanın ayrılmaz guşəsi olan Naxçıvan Muxtar Respublikasının ərazisində yerləşən tunc dövrü kurqanlarından bəhs olunur. Məlumdur ki, muxtar respublika ərazisində tunc dövrü mədəniyyətinin müxtəlif problemləri XIX əsrin sonlarından bu günədək öyrənilir. Lakin bu dövrün kurqan tipli qəbir abidələri tərəfimizdən ilk dəfə tam şəkildə, elmi-tədqiqat işi səviyyəsində araşdırılır.

Naxçıvan abidələrinin öyrənilməsindən yüz ildən artıq vaxt keçməsinə baxmayaraq, tunc dövrü mədəniyyətinin mənşəyi və xronologiyası ilə bağlı müəyyən problemlər, o cümlədən müxtəlif mədəniyyətlərin bir-biri ilə qarşılıqlı münasibəti və genetik bağlılığı tam şəkildə tədqiq olunmayıb.

Təqdim olunan dissertasiya işində bu və ya bunun kimi problemlər yeni prizmadan nəzərdən keçirilir. Araşdırılmasına ehtiyac duyulan bu dövr sosial-iqtisadi, ictimai, siyasi və mədəni sahələrdə baş vermiş bir sıra ciddi dəyişikliklərlə fərqlənir. Belə ki, ana nəsli öz yerini ata nəslinə vermiş, cəmiyyətdə patriarxal ailə münasibətləri təşəkkül tapmış, hələ xalkolit dövründə əsası qoyulan ibtidai "metallurgiya" yeni inkişaf mərhələsinə qədəm qoymuş, məhsuldar qüvvələrin təkamülü nəticəsində sinifli cəmiyyətin ilk rüşeymlərinin yaranmasına rəvac verən birinci ictimai əmək bölgüsü meydana çıxmış, əkinçilik, maldarlıq, sənətkarlıq kimi təsərrüfat sahələri bir qədər də inkişaf edərək, dövrünə görə ən yüksək pilləyə çatmışdır.

Sonralar baş vermiş ikinci ictimai əmək bölgüsü sənətkarlığın müstəqil sahəyə çevrilməsinə, iqtisadi-mədəni əlaqələrin genişlənməsinə şərait yaratmışdır.

Son yarım əsr ərzində ölkə ərazisində aşkar olunan yeni kurqan tipli arxeoloji abidələr bu dövrün mədəniyyətini toplu halında öyrənmək üçün olduqca əhəmiyyətlidir. Araşdırmalar tunc dövrünün bütün mərhələlərində Azərbaycanın şimal və cənub rayonlarının müəyyən lokal xüsusiyyətləri saxlamaqla, vahid etnik-mədəni regiona daxil olduğunu göstərir.

Tunc dövrünün ilkin - yaranma mərhələsini təşkil edən Kür-Araz mədəniyyətinin formalaşdığı və yayıldığı bölgələr sırasına Naxçıvan Muxtar Respublikasının ərazisi ilə yanaşı, Urmiyaətrafı və Şərqi Anadolu regionu da daxildir. Ümumiyyətlə, Azərbaycanın demək olar ki, əksər bölgələrində, Şimali Qafqazda, Şərqi Anadoluda, müasir Ermənistan və Gürcüstan Respublikaları ərazisində son dövrlər çoxsaylı kurqan tipli abidələr tədqiq olunub. Naxçıvanın tunc dövrü kurqanlarının quruluşu, dəfn adəti, dövrünün müəyyənləşdirilməsi və digər xüsusiyyətlərinin qonşu ərazilərin

həmdövr abidələri ilə müqayisəli təhlili mövzunun aktuallığını artıran amillərdəndir.

Naxçıvanın orta tunc dövrü kurqan mədəniyyətinin öyrənilməsi sahəsində bu günədək müəyyən problemlər açıq qalmışdır. Bu dövrün kurqanlarından həm Azərbaycanın cənub rayonları üçün xarakterik olan boyalı qablar, həm də şimal bölgələrimizin həmdövr mədəniyyətini xarakterizə edən cızma, basma naxışlı saxsı məmulatı tapılmışdır ki, bunların da ümumiləşdirilməsi və sistemləşdirilməsi dissertasiya işində öz əksini tapır.

Son tunc dövrü kurqanlarının genezisi, xronologiyası, bütövlükdə dəfn adətləri və arxeoloji materialın təhlili ilə bağlı dəyərli əsərlər yazılsa da, bu problemlərin də tam həll edildiyini söyləmək olmaz. Son illərdə Naxçıvan ərazisində müxtəlif kurqanlardan aşkar olunan Xocalı-Gədəbəy mədəniyyətinə aid arxeoloji materialın tədqiqi bu ərazinin son tunc və erkən dəmir dövrü mədəniyyətinin öyrənilməsində yeni səhifələrin açılmasına imkan yaradır.

Naxçıvanın tunc dövrü kurqan tipli qəbir abidələrinin tədqiqi, arxeoloji materialın ümumiləşdirilməsi, dəfn adətləri və qəbir tiplərinin müəyyənləşdirilməsi zamanı müəyyən edilib ki, bu mədəniyyət Ön Asiya, Şərqi Anadolu və qonşu Qafqaz xalqlarının qədim mədəniyyətləri ilə birbaşa bağlıdır. Həmçinin, bu dövr Cənubi Qafqaz arxeologiyası tarixində mühüm əhəmiyyətə malikdir. Buna görə də, regionun kurqan tipli qəbir abidələrinin bu coğrafiyada yerinin müəyyənləşdirilməsi, xronologiyası, mənşəyi və mədəniyyətlərin bir-biri ilə genetik bağlılığının üzə çıxarılması xüsusi tədqiqat aparılmasını tələb edir.

Göründüyü kimi, bizim bu mövzuya müraciətimiz, Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən tunc dövrü kurqanlarını yeni baxışla kompleks şəkildə tədqiq etməyimiz təsadüfi olmayıb, obyektiv zərurətdən doğub. Təkcə Azərbaycanda deyil, qonşu regionlarda özünəməxsus yer tutan Naxçıvanın tunc dövrü kurqanlarının yeni arxeoloji tapıntılar əsasında dəyərləndirilməsi olduqca vacibdir. Yuxarıda göstərilən məsələlərin araşdırılmasında bizim bilavasitə iştirak etdiyimiz məişət və qəbir abidələrinin tədqiqi, çoxsaylı maddi-mədəniyyət nümunələri baza rolunu oynayıb.

Təqdim etdiyimiz dissertasiya işində nəinki Naxçıvanın əzəldən Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğu elmi dəlillərlə sübut edilir, həmçinin, Qərbi Azərbaycanın (müasir Ermənistan Respublikası) həmdövr abidələrindən tapılan arxeoloji materialın müqayisəli təhlili ilə bu torpaqların əzəldən qədim tariximizi özündə əks etdirən regionumuzun bir parçası olduğu təsdiqlənir. Bu da mövzunun aktuallığının təkcə elmi dəyərlərlə

yox, həm də siyasi dəyərlərlə tamamlanmasına şərait yaradır.

Naxçıvanın dağlıq, dağətəyi, düzən zonalarında qeydə alınan, tədqiq olunan tunc dövrü kurqanlarının elmi dövriyyəyə çıxarılması və qədim tayfaların həyat tərzinin işıqlandırılması da mövzunun aktuallığını şərtləndirən əsas amillərdəndir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işində qarşımıza aşağıdakı elmi məqsədləri qoymuşuq:

1. Naxçıvanın tunc dövrü kurqanlarının quruluşu və dəfn adətlərini öyrənmək, qəbirlərdən aşkar olunan arxeoloji materialı, habelə, müxtəlif tədqiqatçılar tərəfindən irəli sürülən fikirləri sistemləşdirib, təhlil etmək, Naxçıvan ərazisində yaşamış tunc dövrü tayfalarının bu dövrə aid keçmişini mədəni-tarixi proses kimi izləmək.

2. Kurqanların topoqrafiyası və quruluşuna aid bilikləri, həmçinin, digər maddi dəyərləri ümumiləşdirməklə, cəmiyyətin sosial-iqtisadi və ictimai həyatında baş verən dəyişiklikləri izləmək. İctimai əmək bölgüləri və sinifli cəmiyyətin yaranması ilə bağlı arxeoloji ədəbiyyatda müxtəlif fikirlər mövcuddur.

Bəzi tədqiqatçılar Azərbaycanın cənubu ilə şimalı arasında iqtisadi-siyasi və sosial inkişaf baxımından müəyyən fərqlər olduğunu söyləyirlər. Araşdırmalar tunc dövrünün bütün mərhələlərində regionda yaşayan tayfaların bir-biri ilə sıx iqtisadi-mədəni əlaqədə olduğunu göstərir. Naxçıvan ərazisi, eləcə də Cənubi Azərbaycan coğrafi baxımdan Ön Asiyanın qədim mədəniyyət mərkəzlərinə daha yaxın olmuşdur.

3. Naxçıvanın tunc dövrü kurqanlarının xronoloji dövrləşməsini müəyyən etmək. Bu ümumi məqsədlərdən aşağıdakı fikirlərin sistemləşdirilməsi və ümumiləşdirilməsi kimi mühüm, konkret elmi vəzifələr irəli gəlir:

- Naxçıvanın tunc dövrünə aid kurqan abidələrinin müasir dövrümüzə qədərki öyrənilmə tarixinə nəzər salmaq;
- bəhs edilən dövrə aid kurqan tipli qəbirlərin təsnifatını verməklə oxşar və fərqli cəhətlərini müəyyənləşdirmək;
- tunc dövrü kurqanlarının qonşu regionların qədim mədəniyyət sistemində yerini işıqlandırmaq;
- dəfn adəti və dəfn mərasimində baş verən dəyişiklikləri izləmək;
- yaşayış məskənləri ilə qəbir abidələrinin müqayisəli təhlilini aparmaq;
- qəbir abidələri əsasında tunc dövrü insanlarının dini-ideoloji baxışlarını və inanclarını işıqlandırmaq;

- Xocalı-Gədəbəy mədəniyyəti adı ilə tanınan son tunc və ilk dəmir dövrü arxeoloji mədəniyyətinin yalnız Azərbaycanın şimal ərazilərində deyil, Naxçıvanın dağlıq ərazilərində də yayıldığını artefaktlara əsaslanaraq qeyd etmək;

- Naxçıvanın kurqan tipli qəbir abidələrindən aşkar olunan materiallara əsaslanaraq, tunc dövrü mədəniyyəti ilə bağlı elmi nəticələri yeni prizmadan ümumiləşdirmək;

- dövrün ictimai quruluşu haqqında təsəvvür yaratmaq.

Yuxarıda göstərilənlər elmi-tədqiqat işimizin əsas istiqamətlərini təşkil edir. Söz yox ki, yuxarıda göstərilən vəzifələri birdəfəlik həll etmək iddiasında deyilik. Göstərilən məsələlərə gələcək tədqiqatların elmi yeniliklər gətirəcəyi şəksizdir.

**Tədqiqat işinin elmi yeniliyi**. Tədqiqat işinin mühüm elmi yenilikləri aşağıdakılardan ibarətdir:

- iki min beş yüz ilə yaxın bir dövrü əhatə edən Naxçıvanın tunc dövrü mədəniyyətinin kurqan tipli qəbir abidələrinin müxtəlif problemləri tərəfimizdən toplu halında ilk dəfə ümumiləşdirilir;

- çoxsaylı arxeoloji materiala, tədqiqata və elmi ədəbiyyata əsaslanaraq, mövzuya yenidən baxılır;

- Naxçıvan ərazisində tunc dövründə mövcud olmuş mədəniyyətlərarası əlaqələrin təhlil olunmasına, oxşar və fərqli cəhətlərinin müəyyən edilməsinə cəhd göstərilir;

- bəhs olunan dövrdə Naxçıvan ərazisində məskunlaşan əhalinin məşğuliyyəti, mənəvi mədəniyyəti, sosial-iqtisadi həyatı, yaşam tərzi və cəmiyyətin strukturundakı bəzi dəyişikliklər tədqiq olunur;

- Naxçıvanın tunc dövrü kurqanları ilə qonşu regionların həmdövr abidələri arasında bənzər və fərqli cəhətləri ilk dəfə olaraq geniş şəkildə araşdırılır;

- tədqiqat işində müəllifin özünün muxtar respublikanın Şərur, Ordubad, Culfa rayonları ərazisində mövcud olan kurqanlarla tanışlığı, arxeoloji qazıntılarda iştirakı ilk mənbə kimi öz yerini tapır və Naxçıvanın tunc dövrü kurqanları bütövlükdə yeni prizmadan tədqiq olunur.

**Mövzunun xronoloji çərçivəsi.** Naxçıvan Muxtar Respublikası ərazisində aparılan arxeoloji qazıntı işlərinin nəticələri göstərir ki, bu ərazidə tunc dövrü mədəniyyəti e.ə. IV minilliyin ikinci rübü və ya ortalarından e.ə. II minilliyin sonuna qədər davam edib. Təxminən 2500 il mövcud olan tunc dövrü 3 mərhələyə - ilk tunc, orta tunc və son tunc dövrlərinə bölünür.

İlk tunc dövründə (e.ə. IV minilliyin II rübü və ya ortaları–e.ə. III minilliyin ortaları) təsərrüfatın müxtəlif sahələri inkişaf edir, sosial bərabərsizliyin ilkin rüşeymləri yaranır. Bu dövrdə ilk ictimai əmək bölgüsü meydana çıxır, əkinçilik maldarlıqdan ayrılır. Dulusçuluq, metalişləmə, toxuculuq kimi sənətkarlıq sahələri inkişaf edir, tuncdan əmək alətləri, məişət əşyaları, silah və bəzək əşyaları hazırlanır, ətrafı hasarlı yaşayış yerləri-protoşəhərlər, yeni tipli qəbirlər və dəfn adətləri yaranır.

Orta tunc dövründə (e.ə.III minilliyin ortaları-e.ə.II minilliyin ortaları) sosial təbəqələşmə güclənir, istehsal vasitələri və əmək alətləri təkmilləşir, insanın insan tərəfindən istismarı artır, şəhər tipli yaşayış yerləri çoxalır. Sənətkarlığın əkinçilik və maldarlıqdan ayrılması nəticəsində ikinci böyük ictimai əmək bölgüsü baş verir, "boyalı qablar" mədəniyyəti formalaşır, böyük tayfa ittifaqları meydana gəlir. İctimai və əmlak bərabərsizliyi dərinləşir.

Son tunc dövrü e.ə.XIV-XII əsrləri əhatə edir. İbtidai icma quruluşunun sonuncu mərhələsi hesab olunan bu dövrdə maldarlıq, əkinçilik və sənətkarlıq bir-birindən ayrı inkişaf etdiyi üçün, əmək məhsullarının mübadiləsi genişlənir, sosial təbəqələşmə artır, sinifli cəmiyyətə keçid baş verir.

**Problemin öyrənilmə səviyyəsi.** Qafqaz arxeologiyasına maraq XIX əsrin 70-ci illərindən etibarən daha da genişlənir. Naxçıvanın tunc dövrü abidələrinin öyrənilməsi haqqında XIX əsrin sonlarında İ.S.Polyakov, K.A.Nikitin və b. öz əsərlərində ilk məlumatlar vermişlər. 1871-ci ildə Tiflis Arxeoloji Komitəsinin yaranması, 1881-ci ildə Tiflisdə arxeoloqların V qurultayı Qafqazın müxtəlif ərazilərinin-o cümlədən Azərbaycanın Naxçıvan bölgəsinin də arxeoloji cəhətdən tədqiqinə marağı artırır.

1926-cı ildə İ.İ.Meşaninov və A.A.Millerin Qızılburunda, 1934, 1936-cı illərdə Ə.K.Ələkbərovun Şərur rayonu ərazisində apardığı arxeoloji qazıntıların böyük əhəmiyyəti olur. XX əsrin 50-ci illərindən isə dövrümüzədək tunc dövrü abidələrinin daha geniş, sistemli tədqiqinə başlanılır. Bu dövrün müəyyən problemləri İ.M.Cəfərzadə, O.H.Həbibullayev, T.A.Bünyadov, İ.H.Nərimanov, R.M.Munçayev, B.B.Piotrovski, S.M.Qazıyev, V.H.Əliyev, Q.S.İsmayılzadə, Q.M.Aslanov, S.M.Qaşqay, V.B.Baxşəliyev, A.Q.Seyidov, B.İ.İbrahimli, S.H.Aşurov, N.Ə.Müseyibli, T.F.Xəlilov, V.H.Kərimov, Q.H.Ağayev, S.H.Aşurov, M.M.Seyidov, T.İ.Axundov, Z.B.Quliyeva, T.M.Xəlilov və b. əsərlərində işıqlandırılıb.

O.H.Həbibullayevin "Kültəpədə arxeoloji qazıntılar" (1959), "Naxçıvan MSSR ərazisində eneolit və tunc dövrləri" (1982) monoqrafiyaları, V.H.Əliyevin 1991-ci ildə nəşr olunan «Azərbaycanın orta tunc

dövrü mədəniyyəti» kitabı, V.B.Baxşəliyev, Ə.İ.Novruzlu, A.Q.Seyidov, N.Ə.Müseyibli, V.M.Babayev, S.H.Aşurov, B.İbrahimli, Q.H.Ağayev və d. tədqiqatçıların 1992-2017-ci illərdə nəşr etdirdiyi kitablarda Naxçıvanın tunc dövrü abidələri müqayisəli şəkildə təhlil edilib, e.ə.IV-II minilliklərdə Azərbaycanda baş verən tarixi-mədəni proseslər işıqlandırılıb.

1980-1990-cı illərdə Q.M.Aslanovun rəhbərliyi ilə Xaraba-Gilan ərazisində tunc dövrünə aid kurqanlar öyrənilib.

1989-1990-cı illərdə V.H.Əliyev və S.H.Aşurov tərəfindən, 2002-ci ildə isə N.Ə.Müseyibli və S.H.Aşurov tərəfindən Şərur rayonu ərazisində yerləşən Qarabulaq nekropolunda ilk və son tunc dövrlərinə aid kurqan tipli abidələr tədqiq olunub.

XX əsrin 90-cı illərində Naxçıvan ərazisində aparılan arxeoloji tədqiqat işləri bir qədər səngisə də, 2000-ci illərin əvvəllərindən etibarən Ordubad, Şərur, Culfa rayonları ərazisində kurqan tipli abidələrin öyrənilməsi davam etdirilir. 1992-1993-cü illərdə Ə.Novruzlu və V.Baxşəliyevin birgə yazdıqları "Şahbuz bölgəsinin arxeoloji abidələri", "Şərurun arxeoloji abidələri" və "Culfa bölgəsinin arxeoloji abidələri" adlı kitablarında tunc dövrünə aid kurqan tipli abidələrdən də bəhs olunur.

Türkiyəli tədqiqatçılar O.Belli və V.Sevinin 1998-ci ildə Naxçıvan abidələri haqqında İstanbulda nəşr etdirdikləri "Nahçıvanda Arkeolojik Araştırmalar", O.Belli ilə V.Baxşəliyevin yenə də İstanbulda 2001-ci ildə nəşr edilən "Nahçıvan bölgesinde Orta ve Son Tunc Çağı Boya Bezemeli Çanak Çömlek Kültürü", V.Baxşəliyev, M.Catherine, S.Aşurovun "Ovçulartəpəsi" və digər kitablarında Naxçıvanın digər abidələri ilə yanaşı tunc dövrü kurqanlarından da bəhs edilir.

2002-ci ildə A.Seyidov və V.Baxşəliyev tərəfindən Nəhəcir kəndində orta tunc dövrünə aid kurqanlar aşkar edilir və onların birində əsaslı arxeoloji qazıntı işləri aparılır. Tədqiqatların nəticələri müəlliflərin birgə yazdığı "Nəhəcirdə arxeoloji araşdırmalar" (2002) kitabında və çoxsaylı məqalələrdə öz əksini tapıb.

N.Ə.Müseyibli 2003-cü ildə nəşr edilmiş "Qədim Sədərək" 2004-cü ildə çapdan çıxmış "Gəmiqaya" kitablarında son tunc dövrünə aid Çapacaq kurqanı və "Nəbi yurdu"nda tədqiq olunan digər bir kurqan tipli qəbir abidəsi haqqında məlumat verir.

2004-cü ildən Xaraba-Gilan arxeoloji ekspedisiyası B.İ.İbrahimlinin rəhbərliyi altında II Plovdağ nekropolunda yeni qazıntılar aparır və burada tunc dövrünün ilk, orta, son mərhələlərinə aid kurqanlar tədqiq olunur. Bu

günədək II və III Plovdağ nekropollarında stasionar qazıntılar davam etdirilir.

V.B.Baxşəliyev 2008-ci ildə nəşr etdirdiyi "Naxçıvanın arxeoloji abidələri" kitabında bölgənin tunc dövrü kurqan abidələrinə, qədim dəfn adətlərinə münasibətini bildirmişdir.

Ümumiyyətlə, dissertasiya işində bu dövrü tədqiq edən arxeoloqların 2017-ci il də daxil olmaqla, kurqan abidələri ilə bağlı, apardıqları tədqiqat işləri öz əksini taparaq, mövzunun araşdırılmasında, problemin öyrənilməsində əhəmiyyətli yer tutur.

**Mövzunun mənbə bazası.** Dissertasiya işinin mənbə bazasını Naxçıvan ərazisində tədqiq edilən kurqan tipli qəbirlərdə dəfn adətləri, onlardan aşkar olunmuş saxsı qablar, osteoloji qalıqlar, metal əşyalar və bəzək nümunələri təşkil edir. Bundan əlavə, Naxçıvanla yanaşı, Azərbaycanın digər bölgələrində bəhs edilən dövrə aid tədqiq olunan kurqanların arxeoloji materialları da müqayisəli şəkildə təhlil olunmaqla, dissertasiya işinin mənbə bazasında önəmli yer tutur.

Təqdim edilən dissertasiya işinin yazılması prosesində yalnız Azərbaycan alimlərinin deyil, həmçinin bir sıra digər ölkə arxeoloqlarının bəhs edilən dövrün kurqanları ilə bağlı əsərlərindən elmi baza qismində istifadə edilərək, müvafiq iqtibaslar verilib.

Tədqiqatlar zamanı Azərbaycan Dövlət Tarix Muzeyinin, Arxeologiya və Etnoqrafiya Muzeyinin, Naxçıvan Dövlət Tarix Muzeyinin fondunda və ekspozisiyasında saxlanılan arxeoloji materiallardan istifadə edilib.

Arxeoloji materialın sistemləşdirilməsi və ümumiləşdirilməsi zamanı O.H.Həbibullayev, V.H.Əliyev, H.F.Cəfərov, Q.S.İsmayılzadə, V.B.Baxşəliyev, A.Q.Seyidov, N.Ə.Müseyibli, B.İ.İbrahimli, S.H.Aşurov, T.F.Xəlilov və digər tədqiqatçı alimlərin arxeoloji qazıntılarının nəticələrindən və məsləhətlərindən yararlanmışıq.

**Tədqiqatın nəzəri və metodoloji əsasını** bütün elmi tədqiqat üsulları və vasitələrindən kompleks şəkildə istifadə təşkil edir. Dissertasiya işinin nəzəri və metodoloji əsasında tədqiqata cəlb olunan ilkin mənbə, arxeoloji material, elmi ədəbiyyatın təhlili və obyektiv nəticələrin əldə olunması kimi məsələlər dayanır. Arxeoloji materiallara vizual baxış keçirərək, mövzu ilə bağlı bizdən əvvəlki tədqiqatçıların bu işlərdəki əvəzsiz təcrübələrindən maksimal dərəcədə bəhrələnmişik.

**Tədqiqatın praktik əhəmiyyəti**. Tədqiqat işi bu sahə üzrə çalışan mütəxəssislər üçün elmi-nəzəri-praktiki vəsait kimi istifadə oluna bilər. Dissertasiya işinin nəticələrindən Cənubi Qafqaz və Azərbaycanın tunc

dövrü arxeologiyasının bir çox elmi problemlərinin həllində, həmçinin, Azərbaycan arxeologiyasının tədrisi, təbliği, yazılması, elmi-metodiki vəsaitlərin tərtibi, elmi-kütləvi nəşrlərin hazırlanması, mühazirə və xüsusi kursların keçirilməsi zamanı istifadə etmək olar.

**Tədqiqatın təqdir olunması.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun «Eneolit və ilk tunc dövrü arxeologiyası» şöbəsində, "Elmi ekspozisiya", "Etnoarxeologiya", "Antik dövr arxeologiyası", "Arxeoloji texnologiya", "Numizmatika", A.A.Bakıxanov adına Tarix İnstitutunun "Qədim dövr tarixi" şöbələri və "Çöl tədqiqatları sektoru" əməkdaşlarının iştirakı ilə geniş müzakirə edilərək, bəyənilib və müdafiəyə təqdim edilib. Elmi-tədqiqat işinin başlıca nəticələri 8 məqalədə (ikisi xaricdə çap olunub) nəşr olunaraq, elmi ictimaiyyətə çatdırılıb.

**Dissertasiyanın quruluşu**. Dissertasiya işi giriş, dörd fəsil, on bir yarımfəsil, nəticə, ədəbiyyat siyahısı və illüstrativ materiallardan ibarətdir. Bu materiallarda tədqiq olunmuş kurqanların planları, aşkar olunmuş maddi mədəniyyət nümunələrinin foto və qrafik təsvirləri, qazıntı prosesini əks etdirən foto şəkillər öz əksini tapib.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasoya işinin **"Giriş"** hissəsində mövzunun aktuallığı, xronoloji çərçivəsi, tədqiqatın obyekti, məqsəd və vəzifələri, mənbəşünaslıq bazası, problemin öyrənilmə dərəcəsi, elmi yeniliyi, nəzəri və metodoloji əsası, praktiki əhəmiyyəti, aprobasiyası və quruluşundan bəhs edilir.

**I fəsil "Naxçıvanın tunc dövrü kurqanlarının öyrənilmə tarixi"** adlanır. Naxçıvan ərazisində yerləşən kurqan tipli qəbir abidələrinin tədqiqini iki mərhələyə ayırmaq olar:

- XX əsrin II yarısında aparılmış arxeoloji tədqiqatlar;
- müstəqillik illərinin arxeoloji tədqiqatları.

Aparılmış arxeoloji tədqiqatlar nəticəsində Naxçıvan ərazisində onlarla kurqan abidəsi öyrənilib ki, bunlar da e.ə. IV-II minilliklərdə yaşamış qədim tayfaların sosial-iqtisadi-mədəni, təsərrüfat və ictimai həyatının müxtəlif sahələrinin inkişaf dinamikasını və dəyişiklikləri araşdırmaq baxımından mühüm əhəmiyyət kəsb edir. Haqqında danışılan kurqanların hamısında geniş miqyaslı qazıntı işləri aparılmasa da, bir neçə nekropolun öyrənilməsi bu zəngin diyarın etnik-mədəni inkişaf dinamikasını açmağa imkan verir.

**II fəsil "Naxçıvanın tunc dövrü kurqanlarının quruluşu və tipləri"** adlanır. Bu fəsil dörd yarımfəsillə tamamlanır.

**2.1. "Kurqanlar dəfn abidəsi kimi. Mənşəyi və tipləri"** adlı yarımfəsildə qeyd olunur ki, Naxçıvan Muxtar Respublikası ərazisində aşkar olunan və tədqiqata cəlb edilən kurqanların örtüyü müxtəlifdir. Çay kənarlarında ən çox rast gəlinən kurqanlar çay daşı qarışıq torpaq örtüklü olduğu halda, düzən ərazilərdə torpaq kurqanlar üstünlük təşkil edir. Qəbir kameralarının da hazırlanması, daş qutuların qurulması, örtük daşlarının qoyulması zamanı yerli materialdan geniş istifadə edilib. Belə hallara Qarabulaq, Plovdağ, Nəhəcir kurqanlarında rast gəlinir.

Araşdırmalar göstərir ki, kurqanlar qəbir (dəfn) abidəsi olmaqla bərabər, həm də qəbir tipidir. Ölkəmizin ərazisində e.ə. IV minilliyin başlanğıcından etibarən ölən adamın məzarı üzərində adətən, torpaq, ağac və ya daşdan yarımkürə formalı süni təpəciklər düzəldilirdi. Kurqanlarda məzar otağı (qəbir kamerası) dairəvi, düzbucaqlı, bəzən kvadrat və ya oval ola bilər.

Bəzi tədqiqatçılar "kurqan" sözünün türk dilindən rus dilinə və digər xalqların dillərinə keçməsini qeyd edirlər. "Kurqan" sözünə hələ VIII əsrə aid Orxon mətnlərində istehkam, qala mənalarını daşıyan "korğan", "kurğan" şəklində rast gəlinir. Bu sözün təpə formasındakı kurqanlara aid edilməsi də bununla bağlı olub, "qurmaq", "ucaltmaq" (qəbir üstündə təpə ucaltmaq, kurqan örtüyü qurmaq) mənalarını daşıyır. Fikrimizcə, "kurğan", "yurğan", "yorğan" sözü də bu günümüzdə örtük mənasını verir. Lakin bu mədəniyyət qədim türk tayfaları ilə daha çox bağlıdır. Etimal edirik ki, kurqan sözünün bir anlamı da ("kur-qur"– "gor, qəbir"), "qanlı gor, qəbir" deməkdir.

Muxtar respublikanın istər dağlıq, istərsə də düzən ərazilərində qurulan kurqanların bəzi kiçik lokal xüsusiyyətləri istisna olmaqla eyni tipə və quruluşa malikdirlər. Onların əksəriyyətində dəfn mərasimi bənzər və ya ənənəvi adət üzrə aparılıb. Kurqanların örtüyü konusvari olub, dairəvi quruluşlu ətəyini kromlex əhatələyir. Bu kurqanların bir qismində skeletə rast gəlinmir. Bəzilərində tək, cüt və ya kollektiv dəfnlərə rast gəlinir. Bəzi kurqanlardan müxtəlif heyvanların bütöv və ya hissə-hissə skeletləri aşkar olunur.

**2.2. "İlk tunc dövrü kurqanlarının quruluşu və qəbir tipləri"** adlı yarımfəsildə kurqan tipli qəbir abidələrinin həm oxşar, həm də fərqli cəhətlərindən bəhs edilir. Bu müxtəliflik çox zaman qədim insanların həyatında baş verən dəyişikliklər, bir yerdən digər yerə köç etmələri, təsərrüfat həyatındakı təkamül, cəmiyyətdəki sinfi bərabərsizliyin artması, dini

görüşlərdə, inanclarda baş verən yeniliklər və ya digər hadisələrin təsirindən asılı olurdu. Müxtəliflik özünü qəbir abidəsinin həm quruluşunda, formasında, dəfn prosesinin icrasında, həm də daxili inventarında göstərir.

Naxçıvan ərazisində ilk tunc dövrünə aid qəbir abidələri tunc dövrünün inkişaf etmiş mərhələləri ilə nisbətdə az sayda öyrənilib. Yaşayış məskənlərindən fərqli olaraq, tək-tək qeydə alınan bu dövrün qəbir abidələri cəlbedici yerüstü əlamətə malik deyil. Bu dövrün qəbir abidələri əsasən kurqanaltı torpaq və ya daş qarışıq torpaq qəbirlərdən ibarətdir. Qəbirlərin bir qismində skeletə rast gəlinmir.

Naxçıvan ərazisində ilk tunc dövrünə aid qəbir abidələrinə Şərur rayonu ərazisində Dizə, Qarabulaq, Ordubad rayonu ərazisində Xaraba-Gilan və Culfa rayonu ərazisində Xornu nekropollarında rast gəlinib. Araşdırmalardan məlum olur ki, bu qəbirlər Cənubi Qafqaz və Şərqi Anadolu ərazisində formalaşan kurqan mədəniyyətinin tərkib hissəsidir.

**2.3. "Orta tunc dövrü kurqanları. Qəbir tipləri**" adlı yarımfəsildə qeyd olunur ki, bu dövrün nekropollarının bir neçəsində arxeoloji qazıntı işləri, digər bir qrupunda isə kəşfiyyat işləri aparılıb. Naxçıvan ərazisində yerləşən orta tunc dövrü yaşayış yerlərinin heç də hamısının nekropolu müəyyən edilməyib. Söz yox ki, öz möhtəşəmliyi ilə seçilən I və II Kültəpələrin bu dövrə aid nekropollarının tapılmaması bu mədəniyyət haqqında tam fikir yürütməkdə çətinlik yaradır.

Yaşayış yerləri qəbir abidələri ilə birlikdə tədqiq ediləndə daha effektli və elmi cəhətdən dolğun olur. Bu dövrün abidələri sırasına Dizə, Yaycı, I Nəhəcir, Kükü, Kərki, Çalxanqala, I Plovdağ, II Plovdağ, Qızqalası, I Şahtaxtı kurqanları daxildir.

Orta tunc dövrü kurqanlarında dəfn adəti sağ və sol böyrü üstə, bükülü vəziyyətdə, müxtəlif istiqamətlərdə, tək, cüt və kollektiv şəkildə olub. Skeletsiz qəbirlər də vardır. Skelet olmayan qəbirlərdə yanıq izlərinə rast gəlinmir. Bu da orta tunc dövründə kremasiya adətinin olması fikrini şübhə altına alır. Naxçıvanın orta tunc dövrü kurqanlarının tədqiqi göstərir ki, bu abidələr dövrün bütün mərhələlərini özündə əks etdirir. Bu regionda əhalinin uzun müddət məskunlaşması, şübhəsiz ki, ərazinin Yaxın Şərqin qədim mədəniyyət mərkəzlərinə yaxınlığı ilə bağlı olmuşdur.

Qəbir abidələri onların regional xüsusiyyətlərini aydınlaşdırmaq və geniş nəticələr çıxarmaq üçün tam kifayət etmir. Söz yox ki, dövrün qədim yaşayış yerlərinin tədqiqi də burada əsas rol oynayır.

Plovdağ kurqanlarının mütəxəssislər tərəfindən müxtəlif cür şərh edilən "Qurbangah"larının olmasını arxeoloqlar "ritual" kamera və ya "ehsan kamerası" adlandırırlar. Tədqiqatçı B.İbrahimli belə qənaətə gəlir

ki, qurbangahlar evlərinin planına uyğun tikilməklə, kurqanlar üçün ərzaq anbarı təyinatını daşıyır. Onlar qəbirlərlə eyni vaxtda və ya ola bilsin ki, ondan qısa müddət sonra qurulub. Qurbangahların səviyyəsi qəbirlərin səviyyəsindən həmişə hündürdə olub. İlk tunc dövründə torpaq qəbirlər, son tunc dövründə isə daş qutu qəbirlər çoxluq təşkil edib.

Qəbirlərin bir qismində heyvan skeletlərinə rast gəlinir. Bu kurqanlar üçün dəyişilməyən bir qayda onların kromlexlə əhatə olunmasıdır.

**2.4. "Son tunc dövrünün kurqanları. Kurqanaltı daş qutular, torpaq qəbirlər"** adlanan yarımfəsildə Naxçıvan ərazisində son tunc dövrünə aid torpaq örtüklü kurqanlardan və kurqanaltı daş qutulardan ibarət çoxsaylı qəbir abidəsinin olduğu ön plana çəkilir. Ərazidə III Plovdağ, Dəmirçilər, Qazxan, Maxta-Qarabulaq, II Şahtaxtı, I Qarabağlar, II Qarabağlar, Yurdçu, II Sarıdərə, III Sarıdərə, Culfa, Haqqıxlıq, Payız və digər nekropollar tədqiq edilmişdir.

Naxçıvan ərazisində qeydə alınan son tunc və erkən dəmir dövrünə aid nekropollar üzəri daş qarışıq torpaqla örtülmüş kurqanaltı daş qutu tipli və torpaq qəbirlərdən ibarətdir. Onların bir neçəsi kromlexlə əhatə edilib. Qəbirlərdə tək və kollektiv dəfnlərə (Kolanı, Haqqıxlıq nekropolları) rast gəlinir. Onların bəzisində dəfn qeydə alınsa da (II Qarabağlar, Külüs, II Sarıdərə nekropolları), bir qrupunda skeletə təsadüf edilmir (I Şahtaxtı, I Qarabağlar, Qarabulaq nekropolları). Bəzi qəbirlərdə boyalı qablarla yanaşı, Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterik olan qablar və tunc əşyalar tapılıb. Qəbirlərin bir qrupu zəngin avadanlığa malikdir. Son tunc və erkən dəmir dövründə-sinifli cəmiyyətin astanasında təbəqələşmənin mövcud olduğu özünü büruzə verir.

Dissertasiya işinin **"Arxeoloji materialın təhlili"** adlanan **III fəslində** Naxçıvanın tunc dövrünə aid kurqan abidələrindən tapılmış arxeoloji materiallar təhlil edilir. Onlar əsasən müxtəlif ölçülü və bəzəkli, məişətdə istifadəsi nəzərdə tutulan gil qablar, silahlar və bəzək əşyalarından ibarətdir. Bu əşyaların bir sıra bənzər və fərqli cəhətləri vardır. İlk, orta və son tunc dövrünü əhatə edən arxeoloji materiallar görünüşü, hazırlanma texnologiyası və istifadəsinə görə müxtəlifdir.

Saxsı məmulatı müəyyən xüsusiyyətinə görə özündən əvvəlki və sonrakı mədəniyyətlərin materialından əsaslı surətdə fərqlənir. Bunların sırasına texnologiya, qabların forması, qulplar, naxışlanma və s. daxildir.

**3.1. "İlk tunc dövrünün maddi-mədəniyyət nümunələri"** adlı yarımfəsildə keramika, metal məmulatı, bəzək əşyalarının təhlili ilə sona yetir. İlk tunc dövrü kurqanlarının saxsı məmulatı hazırlanma texnolo-

giyasına və istifadə yönümünə görə müxtəlif tiplərə ayrılır. Onlar küpə, təsərrüfat küpü, kasa, qədəh, xeyrə tipli qablardan və fraqmentlərdən ibarətdir. Qablar əsasən qara, qonur və boz rəngli olub, dulus çarxından istifadə olunmadan, əldə hazırlanıb. Onların bir qisminin gövdə hissəsində, digərlərinin isə gövdə ilə çiyninin birləşdiyi hissədə ilk tunc dövrünün əsas atributu sayılan yarımşar formalı qulpları var.

Naxçıvanın ilk tunc dövrü kurqanlarından tapılmış keramika məmulatının elmi təhlili göstərir ki, yerli dulusçular həm yararlı gilin seçilməsində, həm də bişirilmə texnologiyasında mahir olmuşlar. Bu mərhələyə aid qabların xarici səthi yaxşı hamarlanaraq parıldayanadək cilalanıb. Bəzi qablarda ilk tunc dövrü Kür-Araz mədəniyyətinin erkən mərhələsi üçün xarakterik olan yarımşar şəkilli qulplar halqaşəkilli forma alıb. Bu da həmin qabların bu mədəniyyətin son mərhələlərinə aid olduğunu göstərir.

Təəssüf ki, Şərur rayonu ərazisində tədqiq olunan, ilk tunc dövrünün orta və son mərhələlərinə aid Qarabulaq kurqanlarının iki ədəd metal məmulatından başqa, bu dövrün kurqanlarında metal əşyaların olması məlum deyil.

Bəzək əşyaları haqqında da eyni sözləri demək olar. Ordubad rayonu ərazisində yerləşən İkinci Plovdağ nekropolundakı 25 №-li qəbirdən aşkar olunan və Şərur rayonunun Qarabulaq kəndi yaxınlığında olan kurqandan tapılmış muncuqdan başqa, digər nekropollardan bu dövrə aid bəzək əşyaları tapılmayıb.

**3.2. "Orta tunc dövrünün artefaktları"** adlı yarımfəsildə Naxçıvanın kurqan abidələrindən tapılmış küpə, kasa, çölmək, bardaq, çaynik, qədəh və s. tipli keramika nümunələrindən, metal silah və bəzəklərdən, daş alətlər, silindrik möhür və digər əşyalardan bəhs edilir. Saxsı qabların bir qismi boyalı, digər qismi sadə və müxtəlif naxışlıdır.

Nəhəcirin, Şahtaxtının orta tunc dövrü nekropollarından aşkar olunan keramika məmulatı Naxçıvanın orta tunc dövrü mədəniyyətinin erkən mərhələsini əks etdirən bir sıra elementləri dəqiqliklə izləməyə imkan verir. Boyalı qablar Naxçıvan da daxil, əsasən cənub bölgələri üçün xarakterik olmuşdur.

Metal nümunələrinin (silahlar, bəzəklər) və əsasən də qədim metallurgiyanın inkişafı üçün yerli mis-tunc xammal bazasının olması vacibdir. Naxçıvan ərazisində qədim metallurgiyanın inkişafı üçün kifayət qədər mis, mərgümüş, sürmə, qurğuşun, sink, qızıl, gümüş yataqları mövcuddur.

Orta tunc dövründə tayfalararası müharibələrin genişlənməsi yeni tip silahların hazırlanması üçün zərurət yaratmışdır. Arxeoloji materialdan

görünür ki, bu dövrdə çoxçeşidli metal əşyalar üstünlük təşkil edib. Əhalinin ictimai həyatında yeni növ əmək alətləri, bəzək əşyaları meydana çıxıb. Metal məmulatı müxtəlif tərkibli və formalıdır. Onlar iynə, xəncər, nizə ucu, bilərzik, tiyə qırığı, tunc toppuz, sancaq, sırğa, asma və s. ibarətdir. Bunlar, söz yox ki, qədim sənətkarların peşəkarlığının təcəssümü ilə yanaşı, cəmiyyətdə irəliyə doğru atılan çox mühüm addım olmuşdur.

Orta tunc dövrü abidələrində daş məmulatı azlıq təşkil edir. Kurqanlardan az miqdarda da olsa, dəvəgözü, çaxmaqdaşından hazırlanmış ox uclarına, yerli daş növlərindən düzəldilmiş toppuzlara təsadüf edilir. II Şahtaxtı nekropolundakı qəbir abidələrindən bir ədəd silindrik möhür tapılıb. Bu möhür ağ pastadan hazırlanıb. Arxeoloq V.H.Əliyev silindrik möhür də daxil olan Şahtaxtı nekropolunu e.ə. XVII-XVI əsrlərə aid edir.

II Plovdağ nekropolunda e.ə.III minilliyin sonlarından e.ə.XV-XIII əsrlərinə qədər olan dövrə aid toxunulmamış vəziyyətdə üç ox qabı tapılıb (6, 18 və 75 №-li qəbirlərdən). Bu sadaklar (ox qabları) ölçülərinə, formasına və materialına görə sonrakı dovrlərin ox qablarından fərqlənirlər

Bu dövrdə daş və sümük məmulatlarının azlığı şübhəsiz ki, metallurgiyanın inkişafı ilə bağlıdır.

**3.3. "Son tunc və ilk dəmir dövrünün qəbir avadanlığı"** adlanan yarımfəsildə e.ə.II minilliyin ikinci yarısını və e.ə.I minilliyin əvvəllərini (e.ə. XIV-VIII əsrlər) əhatə edən son tunc və ilk dəmir dövrü əvvəlki mərhələlərdən bir çox əlam+ətləri ilə fərqlənir (son tunc və ilk dəmir dövrü mədəniyyəti bir sıra xüsusiyyətlərinə görə bir-birini tamamladığından, birlikdə araşdırılır).

Arxeoloji abidələrin tədqiqi göstərir ki, e.ə.II minilliyin ikinci yarısından başlayaraq bütün Azərbaycan və Cənubi Qafqaz ərazisində yaşayan tayfaların sosial-iqtisadi və mədəni həyatında böyük dəyişikliklər baş vermişdir. Məhsuldar qüvvələrin inkişafı cəmiyyət daxilində gedən sosial və əmlak bərabərsizliyini dərinləşdirməklə bərabər, sənətkarlarlığın yeni sahələrinin meydana çıxmasına şərait yaratmışdır. Həmin proseslərin izlənilməsində Naxçıvanın son tunc dövrü kurqanlarının tədqiqi və onlardan tapılmış arxeoloji materiallar mühüm rol oynayır. Onlar keramika, metal (tunc və dəmir) məmulatı və bəzəklərdən ibarətdir.

Kurqanlardan aşkar olunan son tunc və ilk dəmir dövrü keramikasını əlamətlərinə görə iki əsas qrupa ayırmaq olar. Birinci qrupa Araz çayı və Naxçıvançay vadisində yerləşən Maxta-Qarabulaq, II Şahtaxtı, II Qarabağlar, Yurdçu, Culfa və digər nekropolların materialları daxildir. Bu qrupa daxil olan abidələrin gil məmulatında orta tunc dövrü üçün xarakterik olan

boyalı qabların inkişafı izlənilir. Belə keramika içərisində çayniklər xüsusi yer tutur.

İkinci qrup keramika Xocalı-Gədəbəy mədəniyyəti nümunələrini daşıyan qablarla oxşardır və onların komplekslərində tək-tək də olsa, boyalı qablara rast gəlinmir. Saxsı məmulatı boz və qara rəngdə hazırlanaraq, cızma xətlərdən ibarət həndəsi ornamentlərlə naxışlanıb.

Naxçıvanın son tunc və ilk dəmir dövrü abidələrindən aşkar olunan arxeoloji materialın bir qrupunu silahlar təşkil edir. Silahlar xəncər, nizə ucları, ox ucluqları, toppuzlar və s. ibarət müxtəlif qruplara bölünür. Bəzək əşyaları bilərzik, qolbaq, ayaq halqaları, sırğa, saç borusu, boyunbağı, müxtəlif asmalar, yastı medalyon, spiralşəkilli, təbərzin balta və digər formalı asmalar, quş fiqurları, üzük, iynə, sancaq, muncuqlar və s. ibarətdir Metal məmulatlarının miqdari-spektral analizlərinin nəticələri çox müxtəlifdir. Araşdırmalardan məlum olur ki, onların tərkibində sink, bürünc, qurğuşun, sürmə və digər aşqarlar vardır.

Kurqanlardan tapılan qiymətli əşyalardan biri də silindrik möhürlərdir. Onlara son tunc və erkən dəmir dövrü abidələrində daha çox rast gəlinir. Kəngərli rayonunda Şahtaxtıdan və Ordubad yaxınlığında yerləşən Xaraba-Gilandan tapılan silindrik möhürlərin çoxu son tunc və ilk dəmir dövrlərinə aiddir.

Naxçıvanın son tunc və ilk dəmir dövrünə aid kurqan tipli qəbir abidələrindən əldə edilmiş arxeoloji materialın təhlilindən bu nəticəyə gəlirik ki, tunc dövründə bu ərazidə həyatın bütün sahələrində inkişaf olmuşdur. Bunu istər keramika məmulatında, istərsə də, silah və bəzək əşyalarının çoxşaxəli olmasında görmək olur. Son tunc və ilk dəmir dövrlərində bəzək əşyalarının çoxluğu, onların mürəkkəb konfiqurasiyası bəzək əşyaları ilə məşğul olan xüsusi sənətkarların mövcud olduğunu göstərir.

Dissertasiyanın **IV fəsli "Naxçıvanın kurqan abidələri daşıyıcılarının sosial-iqtisadi və mənəvi həyatı"** adlanır.

**4.1. "Dəfn adətləri"** adlanan birinci yarımfəsildə Naxçıvan ərazisində qeydə alınan və tədqiq olunan tunc dövrü kurqanlarında rast gəlinən müxtəlif tipli qəbirlər və dəfn adətlərindən bəhs edilir. Qəbirlərin bir qismi daş qutu tipli olub, üzəri daş və torpaq qarışıq kurqanla örtülüb. Bəzi qəbirlərin ətrafı kromlexlə (dairəvi daş düzümü ilə) əhatə olunub. Kurqanaltı adi torpaq qəbirlər də az deyil. Qurbangahlı kurqanlar olduqca maraqlıdır. Qəbirlərdə dəfn olunan insanlar müxtəlif istiqamətlərdə olub. Onlar əsasən sağ və sol böyrü üstə, ayaqları və əlləri bükülü vəziyyətdə, üzlərinə yaxın dəfn olunaraq, yanlarına axirət dünyasında istifadə etmək

üçün yeyəcəklər, müxtəlif heyvanlar, silahlar, bəzək əşyaları və s. qoyulub. Qəbirlərdə tək, cüt, kollektiv və çoxdəfnli adətlərə rast gəlinib.

İkinci yarımfəsildə - **4.2. "Sosial-iqtisadi durum**" adlanır. Naxçıvanın tunc dövrü kurqanlarının tədqiqi bu ərazidə yaşamış qədim tayfaların sosial-iqtisadi və ictimai münasibətlərini öyrənməyə imkan verir. Bu dövrdə əkinçilik, maldarlıq, dulusçuluq, metallurgiya və ev sənətkarlığının yüksək səviyyədə durması iqtisadi-ictimai münasibətlərin irəliyə doğru inkişafının təzahürüdür. Əkinçilik, maldarlıq və sənətkarlığın inkişafı əmək məhsuldarlığının artmasına, istehsal prosesinin mürəkkəbləşməsinə, əmək bölgüsünə və digər sahələrin yüksəlişinə səbəb olmuş və onların müstəqil istehsal sahəsinə çevrilməsinə şərait yaratmışdır.

Üçüncü yarımfəsildə **4.3. "Mənəvi mədəniyyət**" məsələləri işıqlandırılır. Kurqanların tədqiqi, əldə edilən faktik arxeoloji material 3-5 min il bundan əvvəl yaşamış insanların yaradıcılığa, bəzəyə, incəsənətə xüsusi maraq göstərdiklərini sübut edir. Bu dövrün müxtəlif quruluşlu qəbir abidələri, özünəməxsus dəfn adətləri, incəsənət nümunələri, qayaüstü təsvirlər qədim tayfaların mənəvi aləmi haqqında müəyyən təsəvvürlər yaradır. Söz yox ki, boyalı qablar üzərində çəkilmiş müxtəlif kompozisiyalı rəsmlər qədim insanların mənəvi dünyasının zənginliyi ilə bağlıdır.

**"Sənətkarlıq" (4.4)** adlanan yarımfəsildə adından da göründüyü kimi, müxtəlif sənət nümunələrinin hazırlanma texnologiyasına diqqət yetirilir. İbtidai sənətkarlıq tunc dövründə inkişaf edərək, daha da təkmilləşir. Kurqan abidələrində aparılan arxeoloji qazıntılardan əldə edilən müxtəlif alətlər, təsərrüfat əşyaları o dövrdə sənətkarlığın müxtəlif qollarının – metallurgiya və metalişləmə, dulusçuluq, daşişləmə, dəri və gönişləmə tunc dövrünün müxtəlif mərhələlərində dinamik şəkildə inkişaf etdiyini göstərir. Sadalananlar arasında metallurgiya və metalişləmənin aparıcı yerlərdən birini tutması xüsusi vurğulanır.

**4.5. "Naxçıvanın tunc və ilk dəmir dövrü kurqanlarının xronologiyası və qonşu ərazilərin abidələri ilə müqayisəli təhlili"** adlanan beşinci yarımfəsildə daha əhatəlidir. Naxçıvanın və bütövlükdə Cənubi Qafqazın tunc dövrü kurqanlarının dövrləşməsi məsələsi həmişə tədqiqatçıların diqqət mərkəzində olub. Araşdırmalardan məlum olur ki, ilk tunc dövrü Maxta-Qarabulaq kurqanlarının xronoloji çərçivəsi e.ə.IV minilliyin ortaları və ya dördüncü rübü ilə e.ə.III minilliyin birinci rübünü əhatə edir.

İlk tunc dövrünə aid Plovdağ kurqanlarının araşdırıcısı B.İbrahimli aşkar olunan arxeoloji materialın analoji təhlilinə əsasən belə qənaətə gəlir

ki, bu kurqanlardan bəziləri ilk tunc dövrünün orta (55 №-li qəbir) mərhələsinə, bəziləri (25 №-li kurqan) isə son mərhələsinə aiddir. Plovdağın ilk tunc dövrü kurqanları e.ə.IV minilliyin sonu-e.ə.III minilliyin əvvəlləri ilə e.ə.III minilliyin ortalarına qədərki dövrü əhatə edir (məlumatı B.İbrahimli verib).

Dizə və Xornu ilk tunc dövrü kurqanlarının keramika məmulatı özünə Naxçıvanın e.ə.III minilliyin əvvəllərinə aid arxeoloji materialları arasında yer tapır. Fikrimizcə, Naxçıvanın ilk tunc dövrü kurqanlarının xronoloji çərçivəsi eramızdan əvvəl IV minilliyin ortaları və ya dördüncü rübü ilə eramızdan əvvəl III minilliyin ortalarına – orta tunc dövrünə qədərki mərhələni əhatə edir.

Orta tunc dövrünə aid Nəhəcir nekropolunda arxeoloji qazıntı işləri aparmış arxeoloqlar A.Q.Seyidov və V.B.Baxşəliyev aşkar olunmuş boyalı qabları Ön Asiyanın və Şərqi Anadolunun həmdövr abidələri ilə müqayisəli şəkildə təhlil edərək, e.ə.III minilliyin ikinci yarısına və e.ə.II minilliyin əvvəllərinə aid edirlər. Digər orta tunc dövrü kurqanlarının arxeoloji materialları e.ə. XV-XIV əsrlərə qədər əhatə edir. Son tunc dövrünün abidələri isə e.ə.XIV-X əsrlərlə başa çatır.

Naxçıvanın tunc və ilk dəmir dövrü kurqanlarının qonşu ərazilərin göstərilən dövrə aid eyni tipli abidələri ilə müqayisəli təhlili göstərir ki, bu kurqanlar müxtəlif lokal xüsusiyyətlərə malik olmaqla, Cənubi Qafqazda, Şərqi Anadoluda mövcud olan kurqan mədəniyyətinin tərkib hissəsidir. Naxçıvanın tunc və ilk dəmir dövrü kurqanlarının (Plovdağ kurqanları istisna olmaqla) hamısı kiçik fərqlərlə eyni quruluşa malikdir. Kurqan qurulmazdan əvvəl dəfn prosesi keçirilərək, qəbir kamerası ya materikdən aşağıda çala şəklində qazılıb, ya da materikin üzərində düzəldilib. Naxçıvan ərazisində yaşayan qədim tayfaların öz inkişafına görə qonşu tayfalarla eyni səviyyəyə çatmasına baxmayaraq, digər bölgələrimizdə (Borsunlu, Bəyimsarov, Xankəndi və digər kurqanlar) öyrənilən, dəfn adətlərinə görə fərqlənən zəngin qəbir abidələri hələlik bu ərazidə tədqiq olunmayıb.

Dissertasiyanın **"Nəticə"** hissəsində elmi işin əsas yekunları göstərilir. Naxçıvan Muxtar Respublikası ərazisində qeydə alınan və tədqiq olunan kurqanlar qədim əhalinin e.ə.IV minilliyin ortaları və ya son rübü ilə e.ə.II minilliyin sonları arasındakı 2000-2500 illik xronoloji dövrü əhatə etməklə, tunc və ilk dəmir dövrü insanlarının ictimai və təsərrüfat həyatının müxtəlif sahələrində baş verən dəyişiklikləri izləməyə imkan verdi. Araşdırmalara əsasən demək olar ki, tunc dövrünün bütün mərhələləri Naxçıvan ərazisində yerləşən kurqanlarda izlənilir. Nekropollardan əldə

olunan maddi-mədəniyyət nümunələri qədim insanların məşğuliyyəti, cəmiyyətdəki sosial vəziyyəti, mənəvi aləmi, sinfi bərabərsizliyin əlamətləri, dini-ideoloji görüşləri barədə zəngin informasiya əldə etməyə kömək etdi. Göstərilənlər Azərbaycanımızın bu bölgəsində cərəyan edən prosesləri aşkara çıxarmaqla yanaşı, onun digər ərazilərlə və qonşu tayfalarla münasibətlərinin aydınlaşmasına və bütövlükdə Azərbaycan tarixinin müvafiq dövrünün yeni materiallarla zənginləşməsinə şərait yaratdı.

Təhlil olunan dövrə aid kurqan tipli abidələrin araşdırılmasının nəticəsi olaraq bu fikrə gəlirik ki, Naxçıvan Muxtar Respublikası ərazisində tədqiq olunan tunc və erkən dəmir dövrü mədəniyyəti qədim dövrdən bu ərazidə məskunlaşan tayfalar tərəfindən yaradılıb. Araşdırmalardan görünür ki, istər Naxçıvan ərazisində, istərsə də Azərbaycanın digər bölgələrində tunc və erkən dəmir dövründə məskunlaşmış əhali dövlət qurumu, sinifli cəmiyyətin astanasına gəlib çıxmış, lakin bu proses başa çatmamış qalmışdır.

Maddi-mədəniyyət nümunələrinin təhlili tunc dövrünün son mərhələsində ictimai quruluşda hiss olunacaq dərəcədə dəyişikliklərin meydana çıxdığını göstərir. Qəbir abidələrinin tədqiqindən əmlak və sosial bərabərsizliyinin nəticələri açıq-aydın görünür. Qəbirlərin bir qrupu varlı (Şahtaxtı, Qarabağlar, Culfa, Yurdçu, III Sarıdərə, Kolanı nekropolları və s.), digər bir qrupu isə kasıb avadanlığı (Haqqıxlıq, II Sarıdərə, Bayəhməd nekropolları və s.) ilə seçilir. Bütün bunlar öz növbəsində var-dövlətin müxtəlif ailələrin, tayfa ağsaqqallarının, hərbçilərin əlində cəmlənməsinə, cəmiyyət daxilində qütbləşmənin son həddə çatmasına və ibtidai-icma cəmiyyətinin dağılmasına səbəb olmuşdur.

Naxçıvanın kurqan abidələri daşıyıcılarının dəfn adətləri, sosial-iqtisadi durumu, mənəvi mədəniyyəti, dövrləşmə və digər məsələləri haqqında müxtəlif məlumatlar versək də, bu məsələni tam bitmiş hesab etmirik. Naxçıvan ərazisində arxeoloji tədqiqat işləri davam edir. Gələcək tədqiqatların daha uğurlu olacağına və yeni elmi fikirlərin meydana çıxması üçün şərait yaradacağına əminik.

**Dissertasiyanın əsas məzmunu müəllifin çap olunmuş aşağıdakı elmi məqalələrində öz əksini tapmışdır.**

1. Naxçıvanın tunc dövrü kurqanlarının öyrənilmə tarixi. "Tarix və onun problemləri" jurnalı, Bakı 2013, № 4, s. 307-313.
2. Naxçıvanın tunc dövrünə aid qəbir abidələri. "Tarix və onun problemləri" jurnalı, Bakı 2014, № 3, s.278-283.
3. Naxçıvanın orta tunc dövrü yaşayış məskənləri. "Azərbaycan Arxeologiyası və Etnoqrafiyası" jurnalı, Bakı 2014, № 2 , s.33-35.
4. Социальная жизнь и религиозные взгляды племен Нахичевана эпохи бронзы. Журнал «Гилея», Киев 2015, 94 (№3) с. 117-120.
5. Naxçıvanın tunc dövrünün öyrənilməsində Gəmiqaya abidəsinin rolu. "AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu. Naxçıvan Muxtar Respublikasinin 90 illiyi"nə həsr olunan elmi konfransın materialları, Bakı 2014, s.27-28.
6. Classification of grave (funeral) monuments of Nakhchivan in early and middle Bronze Age. Материалы международной конференции (посвящается 100-летию со дня рождения Натальи Митрофановны Терещенко), Москва 2015, с.278-282.
7. Naxçıvanın orta və son tunc dövrü qəbir abidələrindən tapılmış keramikanın təsnifatı. "Tarix və onun problemləri" jurnalı, Bakı 2016, № 1, s.262-267.
8. Traces of the ideologigal vieüs of the ancient Nakhchivan tribes in mounds, "Tarix, insan və cəmiyyət" jurnalı, Bakı 2017, № 3, s.14-20 (A.Q.Seyidovla).

**Алибекова Г.Ш.**

## Курганы Нахчывана эпохи бронзы


### РЕЗЮМЕ

Диссертация посвящена курганам эпохи бронзы на территории Нахчыванской Автономной Республики.

Диссертация состоит из введения, четырех глав, заключения, списка использованной литературы и иллюстраций. Иллюстративный материал состоит из планов исследованных курганов, графического изображения образцов материальной культуры, а также фотографий раскопок.

Во «Введении» нашли отражение актуальность темы, хронологическая структура, цели и задачи, источниковедческая база исследования.

В первой главе «История изучения курганов Нахчывана эпохи бронзы» освещены десятки курганов, выявленных в результате археологических исследований.

Во второй главе диссертации «Структура и типы курганов Нахчывана эпохи бронзы» исследованы структура курганов, подкурганных каменных ящиков и грунтовых погребений региона ранне-, средне- и позднебронзового периодов.

В третьей главе «Анализ археологического материала» изучены археологически выявленная керамика, металлические изделия, предметы украшения и другие артефакты.

Четвертая глава диссертации посвящена социально-экономической и духовной жизни местного населения. В данной главе исследуются погребальные обряды, социально-экономическое положение, духовная культура и различные отрасли ремесел в исследуемый период, определена хронология курганов Нахчывана эпохи бронзы и раннего железа, а также проведен сравнительный анализ памятников Нахчывана с памятниками сопредельных территорий.

В «Заключении» диссертации обобщены научные результаты исследования, сформулированы основные выводы.

**Alibekova G.Sh.**

## The Bronze Age kurgans of Nakhchivan

## SUMMARY

The dissertation is dedicated to the Bronze Age kurgans located in the Nakhchivan Autonomous Republic. The kurgans of this period was investigated at this level for the first time in this dissertation.

The dissertation consists of introduction, four chapters, eleven paragraphs, conclusion, a list of references, and illustrative material. Illustrative materials consist of the plans of the investigated kurgans, graphic illustrations of material culture samples and pictures of excavations.

The relevance of the topic, the chronological structure, the object of the research, its goals and tasks, sources of research and etc. is mentioned in the "Introduction" part of the dissertation.

1st chapter is called "The research history of the Bronze Age kurgans of Nakhchivan". As a result of archaeological investigations dozens of kurgan monuments were discovered in Nakhchivan.

2nd chapter of the dissertation is called "The structures and types of the Bronze Age kurgans of Nakhchivan". This chapter deals with the structure of the Early, Middle, and Late Bronze Age kurgans of the region, stone box and ground graves.

3rd chapter of the dissertation is called " Analysis of the archaeological materials". Pottery, metal, adornment samples and other things, obtained from the kurgans during archaeological excavations, are analyzed in this chapter.

4th chapter of the dissertation is dedicated to the socio-economic and spiritual life of the local population. The burial traditions, socio-economic situation, immaterial culture, different craft areas are mentioned in this chapter, as well as the chronology of the Bronze and Early Iron Age kurgans of Nakhchivan and comparative analysis of the monuments of adjacent territories are commented.

The main results of the research are noted in the "Conclusion"

Tiraj 100. Format 60x84 $^{1}/_{16}$

Azərbaycan Milli Elmlər Akademiyasının mətbəəsi
H.Cavid 115

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ АРХЕОЛОГИИ И ЭТНОГРАФИИ**

*На правах рукописи*

**ГЮНЕЛ ШАХИН кызы АЛИБЕКОВА**

# КУРГАНЫ ЭПОХИ БРОНЗЫ НАХЧЫВАНА

**5505.02 – Археология**

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора философии по истории

**БАКУ - 2018**